# Region ədəbiyyatının yorulmaz tədqiqatçısı



■ Yədulla AĞAZADƏ
*filologiya üzrə elmlər doktoru, professor*

Şəki qədim mədəniyyət mərkəzi kimi milli ədəbiyyatımıza görkəmli şəxsiyyətlər bəxş etmişdir. Onların ədəbi irsinin oxucuya çatdırılması isə bilavasitə ədəbiyyat fədailərinin adı ilə bağlıdır. XX əsrdə və XXI əsrin ilk onilliklərdə Şəkidə ədəbi - mədəni mühitin araşdırılaraq müasir və gələcək oxucuya çatdırılmasında Kamil Adışirinovun xidmətləri əvəzsizdir.

Kamil müəllim Şəkidə elmi-pedaqoji fəaliyyət göstərir. 1992-ci ildə Şəki şəhərində Bakı Dövlət Universitetinin filialı fəaliyyətə başlamış, K.Adışirinovun klassik və müasir ədəbiyyatımıza dair dərin biliyini nəzərə alan filialın direktoru, ziyalısevər insan, fəlsəfə elmləri doktoru, professor Fərman İsmayılov 1998-ci ildə onu filiala elmi-pedaqoji fəaliyyətə dəvət etmişdir. O, 1998-2001-ci illərdə bu ali tədris müəssisəsində pedaqoji fəaliyyət göstərmişdir. 2005-ci ildən Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialında elmi-pedaqoji fəaliyyətə cəlb edilmişdir. Bu ali təhsil müəssisəsində çalışmağa başladığı ilk günlərdən elmi-tədqiqat fəaliyyətini gücləndirən K.Adışirinov XIX əsrin II yarısında və XX əsrin əvvəllərində Şəkidə yazıb-yaratmış İsmayıl bəy Nakamın həyat və yaradıcılığı ilə bağlı tədqiqat aparmaq istəyini AMEA-nın Nizami adına Ədəbiyyat İnstitu tunun rəhbərliyinə bildirmiş, institutun Elmi Şurası 2007-ci ildə "İsmayıl bəy Nakamın həyat və yaradıcılığı" mövzusunu K.Adışirinov üçün dissertasiya mövzusu kimi təsdiq etmişdir. O, dissertasiya işini AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, Dövlət Mükafatı laureatı, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlının rəhbərliyi altında yüksək səviyyədə yazaraq nakam şair İsmayıl bəy Sədrəddinbə- yovun ruhunu şad etmiş, onu ədəbiyyat tariximizin qaranlıq səhifələrindən çıxararaq, oxuculara, ədəbi ictimaiyyətə tanıtmışdır. Bu tədqiqat işini o, 2013 - cü ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun İxtisaslaşmış Müdafiə Şurasında müvəffəqiyyətlə müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini qazanmışdır.

Şəkinin elmi həyatında xidmətləri olmuş, AMEA-nın Şəki Regional Elmi Mərkəzinin direktoru Z.Əlizadə onun tədqiqatçılıq qabiliyyətini yüksək dəyərləndirərək 2005-ci ildə onu AMEA-nın Şəki Regional Elmi Mərkəzinin "Folklorşünaslıq və el sənətləri" laboratoriyasına (hazırda şöbə) elmi işçi kimi elmi fəaliyyətə cəlb etmişdir. K.Adışirinov Elmi Mərkəzin elmi araşdırma planına uyğun olaraq regionun folklor, tarixi-etnoqrafik, toponimik və onomastik baxımdan araşdırılmasına dair elmi-tədqiqata cəlb edilmiş, professor Zəkəriyyə Əlizadənin rəhbərliyi altında Şəkinin özü qədər qədim kəndlərindən olan Oxud, Baş Göynük, Baş Şabalıd, I və II Biləcik, Baqqal kəndlərinin tarixi-mədəni, etnoqrafik və folklor həyatını araşdırmışdır. Oxud kəndinin qeyd edilən istiqamətlər üzrə öyrənilməsi təxminən bir il davam etmişdir. Tədqiqat nəticəsində qələmə alınmış toplantılar Elmi Mərkəzin Elmi Şurasında dinlənilib müzakirə edildikdən sonra mərkəzin nəşr planına daxil edilmişdir. Nəticədə "Qədim türk-Oğuz yurdu Oxud" adlı kitab 2006-cı ilin iyul ayında "Nurlan" nəşriyyatı tərəfindən nəşr edilmişdir. Kitaba AMEA-nın professorları Z.Əlizadə və M.Qasımlı tərəfindən yazılmış "ön söz"də əsərin müasir mərhələdə türklüyün öyrənilməsində böyük tarixi və elmi əhəmiyyəti yüksək qiymətləndirilmişdir.

Əsər giriş və beş fəsildən ibarətdir. "Giriş"də mövzunun aktuallığı əsaslandırılmış, Şəki Regional Elmi Mərkəzin qarşıya qoyduğu ən mühüm vəzifə kimi Oxud kəndinin tarixi-mədəni baxımdan tədqiqata cəlb edilməsinin əhəmiy yətindən danışılmışdır.

"Oxud kəndinin tarixi coğrafiyası" adlı birinci fəsildə tədqiqatçı kəndin tarixinin qədim köklərini xalqın deyim, alqış və qarğışları vasitəsilə sübuta yetirmişdir. Hələ XX əsrin 70-ci illərində Oxud kəndindən aşkar edilmiş küp qəbirlər bu ərazinin əzəli türk yurdu olduğunu sübut edir. İslamın burada bərqərar olması tarixinə dair əsaslandırılmış faktlar, toponimlərin türk dilinə məxsus olmasını təsdiqləyən əyani dəlillər, XX əsrin 30-cu illərində bolşevik rejiminə qarşı yönələn hərəkat, bu hərəkatın qaçaq hərəkatı mərhələsi, oxudlu qaçaqların qəhrəmanlığı, kəndin müqəddəs ziyarətgahları, onların yaranma tarixinin elmi və dini məzmunu, Böyük Vətən müharibəsi illərində və Qarabağ döyüşlərində oxudluların keçdiyi şanlı döyüş yolu, "Oxud" toponiminin elmi məzmunu, onun "Oğuz" sözü ilə fonotek-morfoloji müqayisəsi, kəndin maarif və məktəb tarixi və s.məsələlər kitabın ilk fəslində maraqlı və tutarlı faktlarla işıqlandırılmışdır. Fəslin sonunda kəndin coğrafi mövqeyi və ərazisinin hüdudları ətraflı şəkildə şərh edilmişdir.

2006-cı ildə Kamil Adışirinovun XIX əsrin II yarısında və XX əsrin əvvəllərində Şəkidə yaşayıb-yaradan İsmayıl bəy Nakamın həyat və yaradıcılığını əks etdirən "İsmayıl bəy Nakam: həyatı və bədii yaradıcılığı" adlı ikinci kitabı nəşr olunmuşdur.

Kamil Adışirinovun folklorşünaslıq və ədəbiyyat tarixi istiqamətli elmi araşdırmaları qeyd olunan kitablarla məhdudlaşmamış, o, Elmi Mərkəzin tədqiqat planına əsasən Şəkinin Baqqal, I-II Biləcik, Dodu ərazilərinin folklor, etnoqrafik və tarixi baxımdan öyrənilməsində də fəaliyyət göstərmişdir.

Şəkinin qədim və möhtəşəm tarixinin ayrılmaz parçası olan həmin ərazilərin tarixi-coğrafi mənzərəsi, adət-ənənələri, folklor həyatı, demoqrafik vəziyyəti K.Adışirinovun araşdırmalarında dəqiqliyi ilə təsvir-təqdim edilmişdir. Müəllif tədqiq etdiyi ərazilərin toponomik anlamda elmi etimoloji təhlilini əsas götürərək bu ərazilərin qədim türk məskəni olmasını sübuta yetirmişdir.

K.Adışirinovun tədqiqat istiqamətləri qeyd olunanlarla bitməmiş, o, Elmi Mərkəz tərəfindən uzun illər Şəki şəhərinin folklor, etnoqrafik, soy, ləqəb baxımından da öyrənilməsi sahəsində xüsusi əmək sərf etmişdir. Elmi Mərkəzin rəhbəri, professor Z.Əlizadənin tapşırığı əsasında o, Şəkinin Kiş və Dodu ərazilərini qeyd olunan istiqamətlərdə tədqiq etmiş, nəticədə əldə olunan maraqlı toplantılar elmi baxımdan işlənilərək 2009-cu ildə Elmi Mərkəzin unikal nəşrlərindən olan "Şəkidə məhəllə adları, soylar və ləqəblər: II kitab" adlı kitaba daxil edilmiş, K.Adışirinov kitabın həmmüəlliflərindən olmuşdur.

Tədqiqatçının 18 illik zəhmətinin bəhrəsi olan "XX əsr Şəki ədəbi-mədəni mühiti" adlı iri həcmli (488 s) monoqrafiyası 2015-ci ildə "Elm və təhsil" nəşriyyatı tərəfindən nəşr olunaraq müəllifə şöhrət qazandırmışdır. Bu irihəcmli tədqiqat əsərində o, bütöv bir yüzillikdə Şəkinin ədəbi-mədəni həyatına dair maraqlı faktları oxucuların diqqətinə çatdırmış, 40 nəfərdən artıq yazarın həyat və yaradıcılığı haqqında ilk dəfə olaraq geniş məlumat vermişdir. Bu fundamental tədqiqat əsərinin ikinci hissəsini müəllif artıq başa çatdırmaq üzrədir. Tədqiqatçı təkcə ədəbi mühitin təmsilçilərinin yaradıcılığını təhlil etməklə kifayətlənməmiş, gərgin zəhmət hesabına yerli və mərkəzi dövri nəşrlərə səpələnmiş bədii nümunələri toplayaraq, həmçinin şəxsi arxivlərdən istifadə yolu ilə bir sıra yazarların əsərlərini ilk dəfə nəşr etdirərək region və respublika oxucusuna təqdim etmişdir.



2015-ci ildə o, şəkili yazar Elçin Abdullayevin "Üşüdü qəlbimiz" adlı kitabına geniş "ön söz" yazmış, kitabın elmi redaktoru olmuşdur. 2016-cı ildə XX əsr Şəki ədəbi mühitinin təbliği sahəsində onun xidmətləri daha yaddaqalan olmuşdur. Bu ildə o, XX əsr Şəki ədəbi mühitinin tanınmış nümayəndələri olmuş Nurpaşa Hümmətovun "Tanrıdan diləyim", Tofiq Qaffarovun "Gözümün işığı, dilimin sözü", Əhməd Zəyzidlinin "Nədir yaşamaq?", Əşrəf Şayanın "Çəhrayı eynəkdən baxma həyata" adlı kitablarını geniş tərtib və "ön söz"lə nəşr etdirmiş, görkəmli maarifçi Əhməd Yusiflinin ömür yoluna həsr edilmiş "Nurlu xatirələr işığında" adlı xatirə kitabını yazmış, kitab yurdsevər, qədrşünas insan olan hüquqşünas Abdulla Yusifli tərəfindən nəşr etdirilərək oxucuların istifadəsinə verilmişdir.

2016-cı ildə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, görkəmli Akademik İsa Həbibbəyli K. Adışirinovun Şəki ədəbi-mədəni mühitinin tədqiqi və təbliği sahəsindəki yorulmaz fəaliyyətini yüksək dəyərləndirərək "Azərbaycan ədəbiyyatının inkişafında Şəki ədəbi - mədəni mühitinin rolu: 1900-2015-ci illər" mövzusunu ona doktorluq dissertasiyası mövzusu kimi təsdiq etmişdir. Hazırda Kamil müəllim mövzunu filologiya üzrə elmlər doktoru Baba Babayevin elmi məsləhətçiliyi ilə başa çatdırmaq üzrədir. 2017-ci ildə bu yorulmaz tədqiqatçı XX-XXI əsrlərdə Şəki ədəbi mühitinin təmsilçiləri olan Məmməd Çələbiyevin (XX əsr) hekayələrindən ibarət "İnsan ləyaqəti", Aynur Məsimovanın ( XXI əsrin əvvəlləri) hekayə və şeirlərindən ibarət "İtirilmiş səadət", 2018-ci ildə Tural Adışirinin "Barmaqda üzük yeri" adlı kitabları tərtib edərək geniş "ön söz"lə nəşr etdirmişdir.

K.Adışirinovun Baqqal, I-II Biləcik, Baş Göynük, Baş Şabalıd, Baş Layısqı, Aşağı Göynük kəndləri üzrə apardığı uzunmüddətli araşdırmaların sonu kimi "Göynük mahalı: siyasi, coğrafi, mədəni tarixi və folkloru. I kitab" adlı iri həcmli monoqrafiyası 2019-cu ildə "Elm və təhsil" nəşriyyatı tərəfindən nəşr edilmişdir. Kitabda Şəkinin Göynük mahalının ən böyük kəndləri olan Baş Layısqı və Baş Göynük kəndlərinin tarixi coğrafiyası, toponimikası, məhəllələri və nəsilləri, adət-ənənələri, ləqəblər sistemi elmi təhlil edilmişdir. Alimin tədqiqatçılıq fəaliyyəti 2019-cu ildə bununla bitməmiş, həmin ildə o, Azərbaycan Milli Ordusunun gənc şəhid zabiti Aqşin Abdullayevin nəsillərə örnək olan həyat yolunu oxuculara çatdırmaq üçün "Həyatı nəsillərə örnək olan qəhrəman" adlı elmi-populyar kitab nəşr etdirmişdir. Bu maraqlı kitabın ayrı-ayrı hərbi hissələrdə geniş təqdimatı keçirilmiş, gənc əsgər və zabitlərin vətənpərvərlik tərbiyəsində əhəmiyyətli rol oynayan mənbə kimi yüksək qiymət verilmişdir.

2019-cu ildə alim, həmçinin XX əsrin 50-ci illərindən Şəkidə fəaliyyət göstərmiş "Səbuhi" ədəbi məclisinin üzvü olmuş, balakənli şair Surağat Qurbaninin ədəbi irsinin bir hissəsini "Balakən nəğməsi" adı altında geniş "ön söz"lə tərtib edərək nəşr etdirmişdir.

2020-ci ilin əvvəllərində yorulmaz tədqiqatçının daha iki kitabı işıq üzü görmüşdür. Mərhum gənc və istedadlı psixoloq Əfsanə Ramazanovanın ömür yoluna həsr edilmiş "Xeyri bitməyən ömür" kitabı K.Adışirinovu oxuculara daha çox sevdirmişdir. Tədqiqatçının Şəki ədəbi mühitinin istedadlı qələm sahibi olmuş Yaqub Mahirin poetik irsinin geniş səciyyəsini verən "Yaqub Mahirin poetik irsi" adlı monoqrafiyası onu ədəbi ictimaiyyətə istedadlı qələmə malik tədqiqatçı kimi tanıtmışdır. Monoqrafiya respublikamızın tanınmış nəşriyyatlarından olan "Elm və təhsil" nəşriyyatında nəşr olunmuşdur. Əsərin elmi redaktoru AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə elmlər doktoru Baba Babayevdir. Kitaba Lənkəran Dövlət Universitetinin professoru, filologiya üzrə elmlər doktoru Yədulla Ağazadə, ADPU-nun Şəki filialının professoru, pedaqogika üzrə elmlər doktoru Firədun İbrahimov və ADPU-nun Şəki filialının dosenti, filologiya üzrə fəlsəfə doktoru Gülarə Abdullayeva rəy vermişlər.

Monoqrafiyada XX əsrdə və XXI əsrin ilk onilliklərində Şəkidə yaşayıb-yaratmış, uzun illər "Səhuhi" ədəbi məclisinin üzvü olmuş, satiralarında M.Ə.Sabir, lirik-aşiqanə qəzəllərində Əliağa Vahid, gəraylı və qoşmalarında zəngin aşıq şeiri ənənələrini davam etdirmiş istedadlı el şairi Yaqub Mahirin poetik irsi-mühiti, dövrü, həyat və yaradıcılığı yer almışdır. Müəllif şairin maraqlı və məşəqqətli ömür yolunu, cəmiyyətə satirik baxışlarının məcmuyu olan satiralarını, poetik irsinin ayrı-ayrı mövzularını, əsərlərində xalq ədəbiyyatından istifadə imkanlarını və yaradıcılığının sənətkarlıq qüdrətini ilk dəfə geniş şəkildə təhlilə cəlb etmişdir.

Hazırda bu yorulmaz tədqiqatçının uzun illərin tədqiqatının nəticəsi olan "Şəki ədəbi mühitində M.Ə.Sabir satira ənənələri" və "Şəkidə teatr və dramaturgiya məsələləri" adlı geniş həcmli monoqrafiyaları nəşrə hazırlanır.

Kamil Adışirinov hazırda ADPU-nun Şəki filialının Elmi katibi vəzifəsində çalışır. O, filialda "Azərbaycan dili və ədəbiyyat müəllimliyi" ixtisa- sında "Azərbaycan şifahi xalq ədəbiyyatı", "Ədəbiyyatın tədrisi metodikası", "İbtidai sinif müəllimliyi" ixtisasında "İbtidai təhsilin kurikulumu", "Xarici dil- İngilis dili müəllimliyi" ixtisasında "Azərbaycan ədəbiyyatı" fənlərini tədris edir. Tədris etdiyi fənlərin nəzəri əsaslarını yaxşı bilən bu müəllim-tədqiqatçı dərin biliyi, insanpərvərliyi ilə filialın bütün tələbələrinin və professor - müəllim heyətinin sevimlisinə çevrilmişdir.